# Peşə bayramı qeyd olundu

5 iyun Su Təsərrüfatı və Meliorasiya İşçiləri Günü münasibətilə Heydər Əliyev Mərkəzində tədbir sahəsində həyata keçirilən böyük layihələrdən, sel təhlükəsinə qarşı görülmüş işlərdən bəhs edib.



keçirilib. Tədbirdə iştirak edən rayon suvarma sistemləri və su-kanal idarələri işçiləri öncə ulu öndər Heydər Əliyevin mərkəzin foyesindəki büstü önünə gül-çiçək dəstələri düzüb, dahi rəhbərə ehtiramlarını bildiriblər. Sonra tədbir iştirakçıları ulu öndərin həyat və fəaliyyətini əks etdirən foto şəkillərlə, eksponatlarla və digər sənədlərlə tanış olublar.

Heydər Əliyev Mərkəzinin konfrans zalında davam edən tədbirdə rayon suvarma sistemləri idarəsinin rəisi Qüdrət Həmidov çıxış edərək dövlət başçısı cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində ölkəmizdə, o cümlədən Qəbələ rayonunda kənd əhalisinin suvarma suyu ilə təmin edilməsi

Qəbələ Şəhər Su-Kanal İdarəsinin rəisi Tamerlan Həsənov şəhərin içməli su ilə təmin olunması vəziyyəti, su və kanalizasiya sistemlərinin yenilənməsi sahəsində görülən işlərin gedişi barədə tədbir iştirakçılarına ətraflı məlumat verib.

Yekunda tədbir iştirakçıları son illər ölkəmizdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev başda olmaqla dövlətimiz tərəfindən əhalinin içməli su ilə təmin olunması, suvarma və meliorasiya sahəsində həyata keçirilən tədbirlərə həsr olunmuş sənədli filmə tamaşa ediblər.

**Rais RƏŞİDOV,**
**İlkin Vəlizadə (foto),**
**«Qəbələ»**

# Peşə seçimi həm də gələcək həyat yolunu seçmək deməkdir

***Peşə və ixtisas seçmək həm insanın cəmiyyətdə özünü təsdiqinin əsasını təşkil edir, həm də onun həyatda qəbul etdiyi ən başlıca qərarlardan biridir. Bəs hansı peşəni seçməli?***

***Bu suala cavab tapmaq məqsədilə Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzində "Gənclərin düzgün peşə-ixtisas seçimi" mövzusunda tədbir keçirilib. Azərbaycan Respublikası Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının və "Bizim Nəsil" Gənclərin Regional İnkişaf Assosiasiyası İctimai Birliyinin birgə təşkilatçılığı ilə keçirilən bu görüşdə gənclərin peşə-ixtisası seçiminə təsir edən amillərdən, seçimdə yol verilən səhvlərdən danışılıb və onların düzəlişinə dair tövsiyələr verilib.***

Layihənin rəhbəri, "Bizim Nəsil" Gənclərin Regional İnkişaf Assosiasiyasının sədri Nurəddin Mehdiyev çıxış edərək, insanların gündəlik ünsiyyətdə bu və ya digər peşədən, ixtisasdan danışdıqlarını, lakin çox zaman "Peşə nədir?", "İxtisas nədir?" və s. kimi sualların dərinliyinə getmədiklərini bildirib. Nurəddin Mehdiyev bunların gənclərə yetərincə aşılanmadığını və onların orta məktəbi bitirdikləri və abituriyentə çevrildikləri mərhələdə, yəni həyatlarının peşə - ixtisas seçimi kimi məsuliyyətli çağında çətinliklərlə üzləşdiklərini diqqətə çatdırıb.

Tədbirdə iştirak edən ekspert, əmək bazarının tələbi şərtlərdəndirir.

Tədris mərkəzinin direktoru Eyvaz Kazımov çıxışında bildirib



Odlar Yurdu Universitetinin Karyera və İnkişaf Mərkəzinin direktoru, insan resursları üzrə mütəxəssis Zaur Məmmədov da peşə - ixtisas seçiminə həm də gələcək həyat yolunu və tərzini seçmək kimi baxılmalı olduğunu vurğulayıb. O qeyd edib ki, peşə - ixtisas seçimi zamanı hər bir gənc əmin olmalıdır ki, seçdiyi məhz arzuladığıdır və arzuladığı da elə seçdiyidir. Doğru peşə seçimini üç amil: peşəyə istək, peşə bacarığı və ki, bazar iqtisadiyyatı yüksək templə inkişaf edir, dəyişir. Yeni texnika və texnologiyalar yaranır. Təbii olaraq bu inkişafa uyğun yeni peşələr, ixtisaslar meydana gəlir. Ona görə də gənclərin zamana, tələbata uyğun peşə seçməsi onların gələcəkdə işlə təmin olunmasında mühüm rol oynayır.

**Reyhan MƏMMƏDOVA,**
**turizm və otelçilik üzrə peşə tədris mərkəzinin direktor müavini.**

# Ramazan bayramı

İyun ayının 15-16-da ölkəmizdə orucluq (Ramazan) bayramı qeyd olunacaqdır.

Orucluq bayramı ölkəmizdə Milli Məclisin qəbul etdiyi 27 oktyabr 1992-ci il tarixli «Azərbaycan Respublikasının bayramları haqqında» Qanununa əsasən dövlət səviyyəsində qeyd olunur.

Müsəlmanlar «on bir ayın sultanı» adlandırdıqları Ramazan ayında oruc tutur, onun sonunda isə bayram edirlər. Oruc tutmaq müsəlmanların ən vacib ibadətlərindən biridir.

Doğrudur, orucla bağlı dini ayinlər əvvəlki səmavi dinlərdə də (yəhudilik, xristianlıq) mövcud olmuşdur. Amma digər dinlərdən fərqli olaraq İslamda orucluq xüsusi əhəmiyyət daşıyır. İslam qaydalarına əsasən yetkinlik yaşına çatmış sağlamlığı imkan verən hər bir müsəlmana oruc tutmaq vacibdir. Bu ibadət ayini ilə bağlı Məhəmməd peyğəmbərin (s.ə.s) xeyli kəlamları var. Onların birində deyilir ki, Adəm oğlunun hər bir əməli özü üçündür. Təkcə orucdan başqa o, Allah üçündür və əvəzini də Allah verir.

Beləliklə bu çox vacib ibadətin bayramı da müsəlmanlar tərəfindən yüksək səviyyədə qeyd olunur. Həmin gün qohumlar, dost-tanışlar bir-birinə baş çəkir, təbrik edir, küsülülər barışır. İnsanlar yaxınlarının məzarını ziyarət edərək ruhuna dualar edirlər. Bayram günü xəstələrə, ağsaqqal və ağbirçəklərə baş çəkmək, uşaqları hədiyyələr və xoş sözlərlə sevindirmək yaxşı hal kimi qiymətləndirilir.

Bayram şənliyi başlamazdan əvvəl bayram namazı qılınır. Hər bir imkanlı müsəlman bayram namazından öncə imkansız insanlara, ailələrə fitr zəkatı verir. Bununla da imkansızların da bayram etməsinə şərait yaradılır.

Ümumiyyətlə, Ramazan bayramı insanlar arasında xoş ünsiyyəti, yardımlaşmanı, humanizmi gücləndirmək üçün allah tərəfindən bəxş edlmiş bir fürsətdir.

Gəlin, Allahın bu lütfünə şükr edək və ürəkdən ona qoşulaq.

# Siniflərdə keçən 40 il

***Aydınqışlaq kənd orta məktəbində yaxşı bir ənənə var. Uzun illər məktəbdə çalışan müəllimlərin işləmək üçün lazım gələn yaş həddi çatdıqda onlar təntənə ilə təqaüdə yola salınırlar. Növbəti belə tədbirlə məktəbin inglis dili müəllimi Qüdrət Mikayılov təqaüdə göndərilmişdir. Qüdrət Mikayılov 40 ildən artıq Aydınqışlaq kənd orta məktəbində ingilis dili fənnindən dərs demişdir. Bu müddət ərzində işinin öhdəsindən bacarıqla gələn pedaqoq kimi tanınmış, kollektivdə hörmət qazanmış, şagirdlərə özünü sevdirə bilmişdir.***

Təntənəli mərasimə məktəbin Azərbaycan dili və ədəbiyyatı müəllimləri Nərminə İslamova və Xanım Zakirova aparıcılıq etmişlər.

Məktəbin direktoru Sevil Nəbiyeva Qüdrət müəllimin həyat yolundan, pedoqoji fəaliyyətindən ətraflı danışmış, müəllimini və həmkarını 40 ildən artıq qüsursuz işləyərək təqaüdə çıxdığı üçün təbrik etmişdir.

Tədbirdə iştirak edən rayon təhsil şöbəsinin müdiri Arifə Bayramova da Qüdrət Mikayılovu təbrik etmiş, ona gözəl istirahət arzulamışdır. O, qeyd etmişdir ki, bu cür müəllimlərin sayəsində Aydınqışlaq kənd tam orta məktəbi qabaqcıllar sırasındadır.

Məktəbin müəllimləri İlahə Qəribova, Aytən Məcidova, Təmraz Mehdiyev və başqaları çıxış edərək həmkar yoldaşlarını təbrik etmişlər.

Qüdrət Mikayılov ona göstərilən diqqət və qayğıya görə rayon təhsil şöbəsinin və məktəbin rəhbərliyinə təşəkkür etmiş, bu doğma ocaqdan gururla ayrıldığını bildirmişdir.

**Rəna XANCANOVA,**
**Aydınqışlaq kənd diyarşünaslıq klubunun müdiri.**

# Məktəblilər maarifləndirilib

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi «Aztelekom» MMC tərəfindən Qəbələ şəhər 5 nömrəli məktəbdə uşaqların internetdə olan təhlükələrdən müdafiəsi mövzusunda seminar keçirilib.

İnteraktiv şəkildə aparılan seminarda məktəblilərə internetdə zərərli kontentlərdən qorunmağın yolları izah olunub.

Tədbirdə bildirilib ki, "Aztelekom" MMC-nin öz internet istifadəşiləri üçün təqdim etdiyi "informasiya filtrlənməsi" rolunu oynayan xidməti sayəsində insanların, əsasən də azyaşlı uşaqların psixologiyasına neqativ təsir edən veb səhifələr istifadəçilər tərəfindən filtir edilir.

Beləliklə, cinayətkarlığı, zorakılığı və aqressivliyi əks etdirən internet saytlarına giriş nəzarətə götürülür, arzuolunmaz saytlara girişə qadağa qoyulur. Uşaqlar arzuolunmaz saytlara daxil olmaq istədikdə bu xidmət səhifələrə girişi məhdudlaşdırır.

Qeyd edilib ki, bu xidmətdən yalnız azyaşlı uşaqların valideyinləri deyil, eləcə də iş saatlarında effektivliyin artırılması məqsədi ilə hüquqi şəxslər də istifadə edə bilərlər.

Xidmətdən istifadə qaydaları ilə bağlı bildirilib ki, istifadəçi "ağ siyahı" yaradaraq arzuolunan internet resurslarının siyahısını tərtib edir. Eyni zamanda təhlükəli resursları "qara siyahı" ya salaraq, onlardan istifadəni



məhdudlaşdıra bilir.

Həmçinin, istifadəçi istədiyi vaxtı filtri deaktivləşdirir.

Seminarda şagirdlər yüksək fəallıq nümayiş etdiriblər.

**Vüsal SƏMƏDOV,**
**RİH-nin aparıcı-məslәhətçisi.**
**Səhrab Umuyev (foto).**
**"Qəbələ"**

# Doğma ölkəmizdə

## Sənaye məhsulunun 21,3 faizi emal sektorunda istehsal olunub

Azərbaycanda sənaye məhsulunun 21,3 faizi emal sektorunda istehsal olunub.

Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildiriblər ki, emal sektorunda tütün məmulatlarının istehsalı 2,8 dəfə, mebel istehsalı 96,7 faiz, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 85,1 faiz, toxuculuq sənayesi məhsullarının istehsalı 53,2 faiz artıb, içkilərin istehsalı 3,1 faiz, qida məhsullarının istehsalı 7,2 faiz, geyim istehsalı 25,2 faiz azalıb.

## Azərbaycanda pul bazası 8,4 milyard manat olub

İyunun 1-nə Azərbaycanda pul bazası 8 milyard 404,4 milyon manat təşkil edib.

AZƏRTAC Mərkəzi Banka istinadla xəbər verir ki, bu göstərici mayın 1-i ilə müqayisədə 8,6 milyon manat azdır.

Son bir ildə pul bazası 2 milyard 615,7 milyon manat artıb.

# "Xəzər" Azərbaycan avtomobilidir

Bu ilin mart ayının 29-da Azərbaycan Prezidenti İlham Əliyev Neftçala sənaye Məhəlləsində "Azərmaş" ASC və İran Khodro şirkətlərinin birgə yaratdığı zavodun açılışında iştirak edib və burada istehsal edilmiş ilk avtomobilə baxıb. Zavodun açılışından cəmi iki ay sonra zavod "Xəzər" adlanan avtomobilin satışına başlayıb. Artıq 100 avtomobil satışa hazırdır. Zavodun illik dövriyyəsi 140 milyon manatdan çoxdur. Burada 300 nəfər işlə təmin olunub.

Zavodda ilk vaxtlar ayda 160 avtomobil istehsal olunacaqdır.